***Emilya XUDİYEVA***

# İSRAİLDƏ DİN VƏ DÖVLƏT MÜNASİBƏTLƏRİ

**Açar sözlər:** repatriasiya, yəhudilər və yəhudilik, tarixi ittifaq
**Keywords:** repatriation, Jews and Judaism, historical alliance
**Ключевые слова:** репатриация, евреи и еврейство, исторический союз

Yaxın Şərq regionunun yeganə yəhudi dövləti olan İsraildə din ilə dövlət arasındakı münasibət hər zaman aktual olan mövzulardan sayılır. İsrail dövlətinin "İstiqlaliyyət Bəyənnaməsi"nin uyğun bəndlərinə əsasən bu ölkədə din və dövlət arasında münasibətlərin məna və mahiyyətini aydınlaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

İlk növbədə qeyd etmək lazımdır ki, yəhudilərin yaşadığı "müqəddəs torpaqlar" Erets-İsrail adlanır. Bu da ibri dilindən götürülən ארץ ישראל bir termindir və tərcümə olunmadan dilimizdə olduğu kimi istifadə edilir. Məhz bu torpaqlarda yəhudi xalqının mənəvi, dini və sosial-siyasi siması təşəkkül tapmış və tədricən formalaşmışdır. Yəhudi xalqı Erets-İsraildə öz suveren dövlətini qurmuş və "Müqəddəs yazılar" adlandırılan Bibliyaya əsaslanaraq siyasi sistemlərini qurmuşlar. Hal-hazırda İsrail siyasi sisteminin əsas qanun və qanunauyğunluqları məhz Tövrata əsaslanır.

Öz doğma vətənindən uzaq düşən yəhudilər heç vaxt inamını itirməmiş, dünyanın bir çox ölkələrinin ərazisinə səpələnsə də, öz vətəninə geri dönəcəklərinə inanmaqda və əmin olmaqda davam etmişlər (1, s.432). Onlar nəinki buna inamını itirməmiş, əksinə, əmin olmuşlar ki, öz siyasi müstəqilliklərini yalnız öz doğma torpaqlarında əldə edə bilərlər (2, s.7).

İsrail dövləti repatriasiya və bütün dünyaya səpələnmiş yəhudilərin həmin dövlətin ərazisində birləşməsi üçün həmişə açıq olmuş və bu mövzuya açıq olaraq qalmaqdadır. Bu dövlət indi də ölkənin inkişafı və yəhudi xalqının rifahı üçün lazım olan bütün səy və imkanlarından istifadə edir. Bunu ölkədə və dünyanın müxtəlif yerlərində yaşayan hər bir yəhudi dərindən hiss edir və duyur.

"Yəhudi kimdir?" probleminin kökündə faktiki olaraq dərin fikirayrılığı durur. Bu cür fikirayrılığı hüquqi diskussiyalar və konstitusiya mübahisələri çərçivəsindən kənardadır. Çünki bu, mahiyyət etibarilə iudaizmə aid olan məsələ kimi dəyərləndirilir.

Bəziləri bu dinə dini-milli sivilizasiya kimi yanaşırlar. Belə ki, dünyanın ilk təkallahlı dini hesab olunan iudaizmin təbiət etibarilə pluralist din olması haqqında müəyyən fikir və mülahizələr mövcuddur. Belə ki, iudaizmdə çoxsaylı cərəyanların mövcud olması faktının özü də məhz bundan meydana çıxır və bu da öz növbəsində problemə münasibətdə fikir müxtəlifliyi yaradır. Bunun əsas səbəblərindən biri İudaizmdə çoxsaylı cərəyanların mövcud olması faktıdır.





Digər bir tərəfdən ibri dilində Allahın adlarından biri də "Elohim" sözüdür və hərfi tərcüməsi "Allahlar" deməkdir. Lakin, ibri dilinin qrammatikasında cins kateqoriyasına əsasən bu söz kişi cinsinin təkində istifadə olunur və bu isimə aid olan sifət və feil həmişə təkdə işlənir.

Prinsip etibarilə yəhudi cəmiyyətini 2 kateqoriyaya bölmək olar: dindar yəhudilər və dünyəvi yəhudilər. Onlar arasında tez-tez mübahisə və fikirayrılıqları yaranır ki, bu da ölkədə müəyyən qarşıdurmalara səbəb olur. Qatı dindar ortodoks yəhudilər hətta mövcud İsrail dövlətinin varlığını tanımaqda belə tərəddüd edirlər. Dünyəvi yəhudilər isə buna təmkinlə yanaşmağa çalışır (3, s.44).

"Yəhudi kimdir?" sualı ilə əlaqədar meydana çıxan mübahisə və problemlər də az olmayıb. Əhalinin siyahıyaalınması haqqında 1965-ci il tarixli qanuna müvafiq olaraq siyahıyaalınma zamanı ilk növbədə dini etiqad və millət haqqında məlumatlar nəzərə alınır. Adı çəkilən qanunun əsas tələbi bundan ibarətdir ki, hər bir yəhudi İsrailə repatriasiya olunmalı və öz vətəninin ərazisində yaşamalıdır. Çünki bunun üçün onun tam haqqı vardır və hər bir yəhudi bu hüquqdan yetərincə istifadə edə bilər.

Mənşəyə görə yəhudiliyin müəyyən edilməsi məsələsi dinə etiqad edənlər ilə etiqad etməyənlər arasında mübahisələrin yaranmasına səbəb olmuşdur. Halaxanın göstərişlərini (dini göstərişləri) mütləq şəkildə yerinə yetirməyən dünyəvi yəhudilər iudaizm dininə münasibətdə öz milli mənsubiyyətlərinin qeyd olunmasının tərəfdarı deyillər və bunu tələb etmirlər.

Dinə etiqad edən yəhudilərin heç bir tərəddüd etmədən tərəfdar çıxdıqları Halaxa konsepsiyalarındakı yəhudilik yəhudi xalqının Tanrısının nəsihətlərinə əsaslanırdı. Həmin nəsihətlər əsasında formalaşan Halaxa konsepsiyası yəhudini bioloji mənşəyinə görə müəyyən edir, yəni yəhudi ilk növbədə bioloji varlıqdır.

Xaredim partiyalarına məxsus nümayəndələrin və digər dindar yəhudilərin fikrincə, ancaq yəhudi qadından dünyaya gələn və ya Halaxaya uyğun olaraq iudaizmi qəbul edən, bununla da Ulu Ata Avraamın nəslinə aid olan şəxs yəhudi hesab oluna bilər. Lakin tədqiqatçılar qeyd edirlər ki, bü cür yanaşma yəhudiliyin müəyyən edilməsi üçün kifayət deyil (4. s.39.).

Qeyd etmək lazımdır ki, yəhudi kimliyinin müəyyən edilməsində Halaxa qanunlarına əsaslanılması əvvəllər üstünlük təşkil edirdisə, son zamanlar buna münasibət bir qədər dəyişilib. Belə ki, dünyəvi və liberal konsepsiyalara əsaslanaraq yəhudi ola bilər:

- özünün bioloji mahiyyətinə görə: "qadının – yəhudi ananın övladı olmaq"
- dini mahiyyətinə görə: "Halaxaya uyğun olaraq iudaizmi qəbul etmiş şəxs" olmaq.

Dünyəvilərin fikrincə, insanın yəhudi millətinə mənsubiyyəti onun bioloji mənşəyindən çox özünün bunu dərketməsi və öz istəyi ilə şərtlənməlidir. Bununla əlaqədar olaraq onlar təsdiq edirlər ki, "oğul ilə ana yəhudi qadın" və oğul ilə ata yəhudi" arasında fərq qoyulması mənasızdır. Dindarlar isə qeyd edir ki, dünyəvi yəhudilərin də Halaxa qaydalarına uyğun olaraq davranması vacibdir.

Bu problemlə əlaqədar dünyəvi görüşlərin əsasında belə bir təsəvvür durur ki, müasir dövrdə çox qədim olan Halaxa müddəalarını əsas tutaraq qalxan səviyyəsinə qaldırmaq mümkün deyil. Bundan başqa, dünyəvilərin fikrincə, dövlətin yaranması yəhudi xalqının tarixində mühüm hadisə kimi durur. Belə ki, hal-hazırda yəhudi xalqının yeni həyat tərzinin formalaşdırılması haqqında müzakirələr gedir. Buna görə də İsraildə hər hansı problemə qatı dindar nöqteyi-nəzərindən yanaşmağa heç bir ehtiyac yoxdur.

"Yəhudi kimdir?" sualı aşağıdakı problemlərin meydana çıxmasına səbəb olmuşdur:

1) reformistlər və ya mühafizəkarlar tərəfindən gerçəkləşdirilən qiyyurun (qiyyur –qeyri yəhudinin iudaizmi qəbul etməsi) tanınması;
2) yəhudi dini ilə yəhudi milləti arasında hüdudun qoyulması və dünyəvi yəhudi millətinin- İsrail millətinin mövcudluğunun tanınması;
3) Bney- İsrail (Hindistandan) və beta-İsrail (Əlcəzairdən) kimi icma üzlərinin yəhudi millətinə mənsubiyyəti;
4) ata yəhudilər və ana yəhudi qadınların uşaqlarının yəhudi millətinə mənsubiyyəti.

Belə bir fikir də mövcuddur ki, əhalinin siyahıyaalınmasında "yəhudi" sözünün qeyd edilməsinin elə bir böyük hüquqi əhəmiyyəti yoxdur. Çünki bu söz bir tərəfdən ravvin məhkəmələrinin üzərinə heç bir vəzifə qoymur, digər tərəfdən isə vətəndaşa əlavə hər hansı hüquq vermir.

Geri qaytarmaq haqqında qanundan irəli gələn hüquqlar və güzəştlər həmin qanuna edilmiş düzəlişlərdə təsbit edilmişdir. Həmin düzəlişlər 1971-ci ildə qəbul olunmuşdur. Ədəbiyyatda qeyd edilir ki, həmin hüquqlar və güzəştlər yəhudilərin uşaqlarına və nəvələrinə verilir. Bu hüquqlar, o cümlədən yəhudi olan ər-arvada və eləcə də onların uşaqlarına (övladlarına) verilir. Belə hüquqlar və güzəştlər hətta yəhudi olub dini etiqadını könüllü olaraq dəyişdirən şəxslər istisna olmaqla, mənşəcə yəhudi olan adamlara da verilir (5, s.7.). Qeyd etmək lazımdır ki, bu müddəa geri qayıtmaq haqqında qanuna edilmiş 2 saylı düzəlişdə nəzərdə tutmuşdur.

Hələ 1950-ci ildə repatriasiya hüququna malik olan "yəhudi kimdir" müddəasını formalaşdırmayan geri qayıtmaq haqqında qanun qəbul edilmədiyi vaxt





"Aqudat Yisrael" (nüfuzlu dini partiyalardan biri) partiyası Halaxaya müvafiq surətdə "yəhudi olan şəxs yəhudidir" tələbinin qanunvericilik qaydasında müəyyən edilməsi müraciəti ilə Knessetdə çıxış etmişdir. Lakin partiyanın bu təklifi rədd edilmişdi, çünki əksəriyyət onun əleyhinə çıxmışdı. Hətta dini sionist fraksiyalar (məsələn, nüfuzlu dini partiyalar olan Mizrahi, Ha-Poel ha-mizrah) belə bir müddəa uğrunda mübarizə aparılmasını məqbul hesab etmədilər.

Növbəti səkkiz il (1950-1958-ci illər) ərzində minlərlə repartriantların geri qayıtdıqları dövrdə (Halaxa nöqteyi nəzərindən qayıdanlar yəhudi sayılmırdılar) onları yəhudilər kimi qeydiyyata götürməsələr də, lakin siyasi mübahisələrin predmetinə də çevrilmədilər.

1958-ci ilin martında "Bar-Yehuda ha-huda ha-avod-Poalej Tsion" partiyasının sədri qeydiyyat idarəsi qulluqçularının direktivini buraxdı. Bar-Yehuda həmin vaxt Daxili İşlər naziri vəzifəsini tuturdu. Onun verdiyi direktivdə müəyyən edilir ki, özünün yəhudi olduğunu səmimi surətdə etiraf edən şəxsi ondan digər sübutları tələb etmədən yəhudi kimi qeydə götürmək lazımdır. Uşaqların qeydiyyatı ilə əlaqədar direktivdə göstərilirdi ki, əgər hər iki ər-arvad yəhudidirlərsə, onların uşağı da yəhudidir. Belə bəyanata uşağın özünün qanuni bəyannaməsi kimi baxılır.

Bar-Yehudanın direktivi Mafdal partiyasının (dini partiyanın) üzvləri arasında dərin etirazlar doğurdu və onların etirazları (əslin də bu, tələbdən ibarət idi) rədd edildikdən sonra partiya hökumətin tərkibindən istefa verdi. 1958-ci ilin iyulunda Nazirlər Kabineti Bar-Yehudanın direktivini dəyişdirməyi qərara aldı və belə bir qərar qəbul edildi ki, özünün yəhudi olduğunu səmimi olaraq etiraf edən və başqa konfessiyaya mənsub olmayan şəxs yəhudidir və yəhudi kimi qeydə alınmalıdır.

İsrail hökumətinin yuxarıdakı qərarı Mafdal partiyasını geri qaytara bilmədi, çünki təsdiq edilmiş formula hələ dini konfessiyadan çox uzaq idi və o, Mafdalı qane edəcək təəssüratlar doğurmurdu. Mafdal partiyası isə belə bir dini prinsipə əsaslanırdı ki, iudaizmi yalnız Halaxaya uyğun olaraq qəbul etmiş şəxs yəhudi hesab oluna bilər.

İsrailin Baş Naziri David Ben-Qurion Mafdalla "tarix ittifaqı" qoruyub saxlamağa bütün qüvvəsi ilə səy göstərsə də və onu hökumətin tərkibinə qaytarmaq üçün üsullar axtarsa da, bunun heç bir faydası və nəticəsi olmadı. Bundan sonra Nazirlər Kabineti belə qərara gəldi ki, Baş Nazirdən, Daxili İşlər nazirindən və Ədliyyə nazirindən ibarət tərkibdə komissiya yaradılsın və həmin komissiyaya 50 nəfər Yəhudi Müdrikinə "Yəhudi kimdi?" sualına alim cavabı verməlari xahişi ilə müraciət edilsin.

Komissiyanın müraciətində 50 nəfər Yəhudi Müdrikdən 45 nəfəri reaksiya verdi. 45 nəfər Müdrikdən 37 nəfəri birmənalı surətdə yəhudinin Halaxa tərəfini

dəstəklədilər. Yalnız bundan sonra Mafdal partiyasının hökumətin tərkibinə qayıtması mümkün oldu.

"Yəhudi kimdir?" sualı XX əsrin 60-cı illərinin başlanğıcında yenidən sərt hüquqi yoxlamalara məruz qaldı. Yəhudi ənənələrinə ciddi əməl edilən ailədə anadan olmuş uşaqların yəhudi millətinə mənsubiyyəti problemi həmin yoxlamaların həll etmək istədikləri əsas problem olmuşdur.

Beləliklə, İsraildə din və dövlət münasibətləri xeyli müddət ərzində mübahisəli məsələlərdən biri olmuşdur, hələ indi də bu məsələ ilə bağlı bir sıra problemin həlli yolları axtarılır. Fikrimizcə, bu, o qədər asan problem deyildir və onun həlli ilk növbədə ölkədə dininlə dövlət arasında münasibətlərdə həll variantların tapılmasına ehtiyac vardır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Амирами. И.О.О религии и государстве в Израиле. – "Ха Умма", т.19,№ 65, 1981
2. Берлин И. Иудаизм и существование Израиля как Демократического государства. Тель-Авив, 1988
3. Билецкий А. Религия в Государстве Израиль – куда? Тель-Авив, 1984
4. Вайлер Г. Еврейская теология. Тель-Авив, 1976
5. Габизон Р. Свобода совести и вероисповедания: Сборник статей. Тель-Авив, 1990.

## RELIGION AND STATE RELATIONS IN ISRAEL
## SUMMARY

Who is a Jew behind the problem? In fact there are so many disagreements. These disagreements concern the root nature of Judaism. Some people see it as a religious-national civilization. Thus there is a very different attitude to the existence of a large number of movements in Judaism. The rabbinical orthodox Judaism rejects any coexistence.

## ОТНОШЕНИЯ РЕЛИГИИ И ГОСУДАРСТВА В ИЗРАИЛЕ
## РЕЗЮМЕ

За проблемой кто такой еврей? фактически стоят глубокие разногласия. Эти разногласия касаются коренной сущности иудаизма. Некоторые рассматривают его как религиозно-национальную цивилизацию. Отсюда различное отношение к самому факту существования множественности течений в иудаизме. Раввинистический ортодоксальный иудаизм отвергает любое сосуществование.